

# Azərbaycan Ordusunun döyüş qabiliyyəti dünya hərbçiləri və ekspertlərini heyran qoyur





**Bu gün Azərbaycan Ordusunun apardığı döyüş əməliyyatları dünyanı heyrətə gətirir. Təkcə ona görə yox ki, biz, sadəcə, döyüş meydanlarında qısa müddətdə böyük uğurlar qazanmışıq. Həm də onun üçün ki, ortaya yeni döyüş taktikası nümunəsi qoyuruq. Dünyanın aparıcı ordularının komandanlıqları Qarabağ döyüşlərinin gedişini diqqətlə izləyəndən sonra bu nəticəyə gəliblər.**









Düşmən həmişə olduğu kimi, bu dəfə də döyüşlərin ilk günündən ordumuzun nüfuzuna xələl gətirməyə çalışırdı. Bildirirdi ki, guya, tərəfimizdə Türkiyə və Pakistan döyüşür. Bunu sübut edə bilmədikdə isə, əsas zərbə qüvvəmizin Suriyadan gətirilən terrorçular olduğunu uydurmağa başladılar. Amma bu fərziyyə də faktlarla təsdiqini tapmadı. Əksinə, dünyaya məlum oldu ki, Ermənistan bütün terrorçu təşkilatlarla əməkdaşlıq edərək onların üzvlərini Dağlıq Qarabağda döyüşlərə cəlb edir. Onlar bununla illərdir yaratdıqları “məğlubedilməz Ermənistan ordusu” mifini qorumaq istəyirdilər. Ancaq Azərbaycan Ordusunun endirdiyi sarsıdıcı zərbələr nəticəsində bu mif bir neçə gündə sabun köpüyü kimi yox oldu.

Azərbaycan Ordusunun cəbhədə qazandığı uğurlara ilk reaksiyalardan biri Amerika Birləşmiş Ştatlarından gəldi. Belə ki, ABŞ Quru Qoşunları Baş Qərargahının rəisi, ordu generalı Ceyms Makkovilin bildirdi ki, Azərbaycan Ordusunun Qarabağda pilotsuz uçan aparatlardan geniş istifadəsi Amerika Silahlı Qüvvələrinin modernləşdirilməsi zərurətini yaradır.

Məlumdur ki, Hindistan da dünyanın ən böyük ordularından birinə malikdir. Bu ölkənin nəhəng ordulara sahib olan Çin və Pakistanla ərazi mübahisələri var. Odur ki, Hindistanın vaxtaşırı qonşu dövlətlərlə sərhəd bölgəsində hərbi toqquşmaları baş verir. Hindistanın Şimal Ordusunun sabiq komandanı, general-leytenant D.S.Xuda ölkəsinin hərbi-siyasi rəhbərliyini xəbərdar edərək deyib ki, Dağlıq Qarabağdakı şərait Şərqi Zadakh regionundakı ilə eynidir. Bu ərazidə Çin və Hindistan tanklarla gücləndirilmiş nəhəng qruplaşmalar yerləşdirib. Hindistanlı general bildirib ki, bu cür landşaft şəraitində tank döyüşləri aparıb qələbə qazanmaq mümkün deyil. Daha sonra general Hindistanın tank bölməsi və ölkənin bütün silahlı qüvvələrinə Qarabağdakı döyüşlərin formatından dərs almağın lazım olduğunu qeyd edib: “Görünən odur ki, iri tank döyüşləri dövrü keçmişdə qalmışdır. Müasir döyüş meydanında və xüsusilə gələcək müharibələrdə tankların həyat qabiliyyəti çoxlu suallar doğurur”.



Rusiyalı hərbi ekspert, “Milli müdafiə” jurnalının baş redaktoru İqor Korotçenko da bildirir ki, Azərbaycan Ordusu XXI əsrdə müharibənin aparılması nümunəsini göstərir. Hərbi ekspert Azərbaycan Ordusunun apardığı döyüş əməliyyatlarının tayı-bərabəri olmadığını deyir: “Dünya hələ bu cür nümunə ilə rastlaşmamışdır ki, bir ordu digər ordu ilə vuruşarkən bu sayda yüksək dəqiqlikli silahlardan istifadə etsin. Pilotsuz döyüş təyyarələrinin istifadəsinin miqyasına və intensivliyinə görə bu, dünya tarixində birinci belə haldır. Nə ABŞ, nə Rusiya, nə İsrail, nə də dünyanın hansısa digər ölkəsi bu miqyasda pilotsuz döyüş aparatlarından istifadə etmişdir. Bu tipli münaqişələrdə həmin aparatlar böyük üstünlüklərini sübuta yetirmişdir”. Ardınca ekspert Azərbaycan Ordusunun təcrübəsinin diqqətlə öyrəniləcəyini qeyd edir.

Tanınmış rusiyalı politoloq-jurnalist Maksim Şevçenkonun da Qarabağda aparılan döyüşlər barədə açıqladığı fikirlər maraqlıdır. O bildirir ki, Azərbaycan Ordusu tərəfindən həyata keçirilən döyüş əməliyyatları göstərdi ki, onun hər hansı bir ölkənin hərbi dəstəyinə və ya terrorçulardan istifadəyə ehtiyacı yoxdur. Azərbaycan Ordusu XXI əsrdə tarixə yazılacaq döyüş nümunələri nümayiş etdirir.

Prezident İlham Əliyev oktyabrın 19-da Rusiyanın TASS İnformasiya Agentliyinə verdiyi videomüsahibədə Azərbaycan Ordusunun peşəkarlığından bəhs edərkən demişdir: “Azərbaycan Ordusu həm döyüş meydanında, həm də texniki təchizat baxımından üstünlüyünü göstərib. Biz Ermənistanın işğal edilmiş ərazilərdə yerləşən əsas hərbi-texniki potensialını praktik olaraq məhv etmişik”.

Amma Ordumuz təkcə yüksək döyüş qabiliyyəti göstərmir, həm də yüksək döyüş əxlaqı ortaya qoyaraq mülki əhali arasında tələfatın olmamasına çalışır. Bunun nəticəsidir ki, erməni tərəfi dinc əhalinin qırılması barədə nə qədər hay-küy qaldırsa da, ortaya bir nümunə qoya bilmir. Əksinə, işğalçı özü cəbhə bölgəsindən kənarda yerləşən dinc əhalini atəşə tutaraq qətlə yetirir.

Bu gün Azərbaycan Ordusu düşmənə göz açmağa imkan vermir. Hər gün yeni yaşayış məntəqələrinin düşməndən azad edilməsi xəbərini eşidirik. Bununla yanaşı, Müdafiə Nazirliyi tərəfindən düşmənin çoxlu sayda hərbi texnikasının məhv edilməsi və ya qənimət götürülməsi xəbərləri verilir. Artıq heç kəsdə şübhə yoxdur ki, Azərbaycan Ordusu qısa bir zamanda işğal olunmuş bütün əraziləri düşmən tapdağından azad edib və həmin yerlərdə üçrəngli bayrağımızı sancacaq. Və bundan sonra məğlubiyyətini etiraf etməyə cürət tapmayan Ermənistan da ən azından güclü olduğumuzu qəbul etməyə məcbur olacaq.

***Rüstəm KAMAL,***
***“Azərbaycan”***